Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının COVID-19 pandemiyası şəraitində informasiya xidmətinin təşkili

Bakı- 2021

**Tərtibçi:** Ruhiyyə Məmmədli

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının COVID-19 pandemiyası şəraitində informasiya xidmətinin təşkili adlı vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. Ruhiyyə Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. - 46 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Giriş

Mədəniyyətimizi, tariximizi, ədəbi əlaqələrimizi geniş oxucu kütləəri arasında yaymaq kitabxanaların ümdə vəzifəsidir. Firidun bəy Köçərlinin adını daşıyan kitabxanamız öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında müdrik kəlamını rəhbər tutmuş, öz işini bu kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir. Heydər Əliyev deyir: "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətmizin sabahı bundan asılı olacaqdır". Uzaqgörən siyasi lider Heydər Əliyevin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əliyev Fondunun gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycan körpələrinin taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir. Bu gün pandemiya şəraitində informasiya cəmiyyəti və biliklər cəmiyyətinin qurulmasında kitabxanaların üzərinə böyük vəzifələr düşür. Çünki kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti göstərən yeganə sosial institutdur. 2020-ci ildə bütün dünyanı cənginə alan koronavirus təhlükəsi Azərbaycanda da müəyyən çətinliklər yaratdı və bir çox sahələrdə olduğu kimi, kitabxana işinə də öz təsirini göstərdi. Planetimizdə COVID-19 pandemiyası başlanan ilk günlərdən xalqımızın müdrik lideri Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan dövləti və hökuməti təhlükənin miqyasını və mümkün fəsadlarını düzgün qiymətləndirdi, bu çətin problemin həlli ilə bağlı tədbirlər görməyə başladı.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 3 mart 2020-ci il tarixli əmri ilə tabelikdə olan təhsil müəssisələrin

də tədris-təlim prosesi müvəqqəti olaraq dayandırıldı, martın 6-da verilən digər əmrlə infeksiyanın mədəniyyət müəssisə lərində yarada biləcəyi təhlükənin qarşısının alınması və bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi üzrə tədbirlər planı təsdiq edildi.

2020-ci il sadəcə COVİD-19 pandemiyasının yayılması ilə yadda qalmadı. Bu il Prezident İlham Əliyevin Ali Baş Komandan olduğu Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsi zamanı otuz il ərzində işğal altında olan torpaqlarımızı azad etməsi ilə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 2020-ci ildə müzəffər Azərbaycan ordusu düşmən caynağı altında inləyən torpaqlarımızı işğaldan azad edərək tarixi qələbəyə imza atdı. Müstəqil dövlətimizin suverenliyi və ölkəmizin ərazi bütövlüyü üçün tarixi əhəmiyyət kəsb edən dövrdə Respublika Uşaq Kitabxanası müz əffər ordumuzun zəfər yürüşünə dəstək olaraq cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizin dünyaya tanıdılması məqsədilə böyük səy göstərdi. Bu zaman ərzində qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi, kitabxananın əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazalarının, virtual sərgilərin əsas mövzusuna çevrildi.

Pandemiya şəraitində F. Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları kitabxananın fondunun lazımi ədəbiyyatla komplektləşdirilməsini təmin edib, daxil olan informasiya formasından (çap və ya elektron) asılı olmayaraq, məlumatlar vaxtında seçib, sistemləşdirilərək bu xəzinənin ən dəyərli hissəsini öyrənib, oxuculara onlayn şəkildə tələbatçıya çatdırırdı. Bu aydın məsələdir ki,

pandemiya şəraitində hər bir tədbirin onlayn şəkildə düzgün təşkili oxucu ilə kitabxanaçı arasındakı ünsiyyəti genişləndirir, oxucunun kitab mütaliəsinə olan meylini və marağını artırır. Pandemiya informasiya əsri adlandırılan XXI əsrin əsas məlumat mənbəyi olan uşaq kitabxanalarının qarşısında keyfiyyətcə yeni vəzifələr qoydu. Pandemiya ilə əlaqədar olaraq müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmağa çalışmışdılar.

Bildiyimiz kimi Yeni informasiya texnologiyaları hər bir kitabxanaçının qarşısında çox geniş imkanlar açmışdır. İndi müasir kitabxanaçı təkcə bədii ədəbiyyat, elmi çap məhsulları və informasiya ilə əlaqədar oxucu tələbatının bilicisi deyil, həm də informasiya mənbələrinin yaradılması və istifadəsi texnologiyası sahəsində mütəxəssis, İnternet elektron şəbəkədə naviqator rolunu oynayır. Pandemiya ilə əlaqədar olaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən onlayn tədbirlərin mütəşəkkil, planlı, sistemli təşkili olunmuşdur. Sözsüz ki, bu tədbirlərin əsas məqsədi bədii irsin ana xəttini oxuculara çatdırmaqdan ibarət idi. Belə tədbirlər sayəsində oxucular onlayn şəkildə respublikamızda baş verən hadisələr və respublikamızın görkəmli ictimai, elmi - mədəniyyət xadimləri haqqında düzgün məlumat almış oldular. Təbii ki, mədəni - maarif müəssisələrində və kitabxanalarda bu formada atılan hər yeni addım milli mədəniyyətimizin tərəqqisini genişləndirdiyi kimi müasir oxucunu da qədim və zəngin mədəniyyətimizə, söz sənətimizə hörmət ruhunda tərbiyə etməkdən ibarət oldu. Pandemiya dövründə gənc nəslin mənəvi tərbiyəsi sahəsində kitabxanamız Mədəni-tarixi-mənəvi dəyərlər əsasında uşaqların şüurunda öz vətəni ilə qürur duymaq, fəxr etmək hissinin aşılanması; Uşaqlarda fəal həyat mövqeyi tərbiyə

etmək; Öz ölkəsinə, xalqına gərəkli olmaq duyğusunu tərbiyə etmək; Bədii, elmi-kütləvi nəşrlərin, audio-video materialların tam spektrindən istifadə etmək; Təbiət, canlılar və bitkilər aləmi haqqında biliklər təbliğ etməklə ekoloji tərbiyəni aşılamaq; Doğma ana dilinə, ədəbiyyata, mədəniyyətə sevgi və onları yaşatmaq ; Uşaq və yeniyetmələrin informasiya mədəniyyətinin yüksəlməsinə yardım göstərmək; Kompüter əsrinin nəslinə çevrilən azərbaycanlı uşaq və yeniyetmələr üçün onların mənəvi-əxlaqi-hüquqi tərbiyəsini təmin edən əlverişli mühitin yaradılmasına çalışmaq; Böyüməkdə olan nəslin sosial-iqtisadi və ictimai həyata adaptasiyasına yardım göstərmək; Günün və cəmiyyətin tələbləri səviyyəsində fəaliyyət göstərmişdir. Azərbaycan xalqının qan yaddaşı, Qarabağ tarixi, Qarabağ müharibəsi və erməni qəsbkarlarına qarşı ölümdirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrə tamiz həyatlarının işıqlandırılması, vətənpərvərlik mövzularında Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi Metodika Şöbəsi Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi tanıtmaq və unutdurmamaq üçün "Vətən mənə oğul desə nə dərdim", "Milli qürur, qələbə və zəfər bayramı", "Bayrağımız qürur mənbəyimiz, and yerimizdir!"," Vətənpərvərlik - ən ülvi bir hissdir" və s. vəsaitlər işləmiş, 9 May, 28 May, 1 İyun, 22 İyul Mətbuat günü ilə bağlı hər birində 50 sual olmaqla onlayn şəkildə viktorinalar təşkil etmişdir. Suallara ən çox düzgün cavab yazan oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılmışdır. Məlumdur ki, onlayn sual - cavab gecələri, viktorinalar  müxtəlif mövzularda təşkil edilir. Məs: incəsənət, vətənpərvərlik, estetik tərbiyə, ekoloji tərbiyə, mütaliə, mənəvi əxlaqi tərbiyə, beynəlmiləl tərbiyə və s. Sual - cavab gecəsini təşkil etdikdə kitabxanaçı qarşısına məqsəd qoymalıdır.

Bu sual-cavab gecəsində iştirak edən Azərbaycanımızın gələcəyi olan uşaqlar bu gecədən nə kimi biliklər əldə etdilər. Pandemiya şəraitində Uşaq kitabxanalarında təşkil edilən onlayn tədbirlər kitabın, elektron nəşrlərin və digər çap məhsullarının geniş oxucu kütləsi içərisində təbliğ edilməsində xüsusi rol oynayır. Bu tədbirlər oxucularda müəyyən bir mövzu haqqında konkret təsəvvür yaradır, həmin mövzularda gedən müzakirələrin iştirakçısına çevirir, bununla bağlı mövcud ədəbiyyatla onlayn şəkildə tanış edir.

***Pandemiya şəraitində kitabxanada həyata keçirilən onlayn tədbirlər 2 əsas funksiya daşıyırdı:***

1. Məlumat funksiyası - oxuculara müəyyən biliklərin verilməsi;
2. Tərbiyəvi funksiya - oxucularda yaradıcılıq vərdişləri, təşəbbüskarlıq, təşkilatçılıq, kollektiv fəaliyyətdə iştiraka maraq yaradılması və bu cəhətlərin inkişaf etdirilməsi.

Pandemiya ilə əlaqədar olaraq kitabxanaçıların başlıca vəzifəsi uşaq kitabxanalarında təşkil olunan onlayn tədbirləri sistemli şəkildə istiqamətləndirmək, oxucuların mütaliə mədəniyyəti və bilik dairəsinin genişlənməsinə səy göstərməkdən ibarət olmuşdur. Bu vəzifələrin yerinə yetirilməsində aşağıdakılara xüsusi diqqət edilmişdir: oxucuları (uşaqları) müntəzəm olaraq oxu üçün seçilmiş kitablarla virtual şəkildə tanış etmək; kitabların təbliğini onlayn təşkil edilən kitab müzakirələri vasitəsilə təşkil etmək. Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ilə əlaqədar F. Köçərli adına respublika Uşaq Kitabxanasında onlayn şəkildə Hüquq həftəsi çərçivəsində bir neçə məktəbin IX və X sinif şagirləri arasında onlayn şəkildə "Hüquq biliciləri" adlı maariflənmə işi aparılmış, diskussiya təşkil edilmişdir. Tədbirə Ombudsman nümayəndələrindən hüquqi maarifləndirmə sektorunun məsləhətçilərini, insan hüquqları müdafiəsi şöbəsinin

məhbusların hüquqlarının müdafiəsi sektorunun məsləhətçilərini tarix və ədəbiyyat müəllimləri onlayn şəkildə dəvət olunmuşdur.

Pandemiya şəraitində Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının saytı da yeniləndi. https://www.clb.az/. Yeni səhifənin yığılması layihəsində əvvəlki səhifədə olan bütün məlumatlar öz əksini tapıb və eyni zamanda köhnə saytda olmayan bir sıra yeniliklər əlavə edildi. O cümlədən mobil cihazlar üçün görüntü dizaynı qurulub, sistem müasir proqramlaşdırma platformasında yığıldı.

Pandemiya ilə əlaqədar olaraq onlayn iş rejiminə keçilməsi məqsədilə mövcud texniki bazanın gücləndirilməsi və serverlərin fasiləsiz iş rejimində fəaliyyətinin təmin edilməsi üçün müəyyən işlər görülüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində yenicə yayılmağa başlayan prosesə çevik reaksiya verilməsi, qabaqlayıcı tədbirlərlə bağlı qərarların zamanında və kifayət qədər olması ilk anlarda baş verə biləcək təhlükələrin qarşısının alınmasında mühüm rol oynadı. Bununla əlaqədar olaraq kitabxanalara oxucuların gəlişi məhdudlaşdırıldı.

Respublikada yaranan vəziyyətlə əlaqədar F.Köçərli adına Respublika Uşaq kiabxanası onlayn xidmətlərlə fəaliyyətə başladı. Aşağıdakı onlayn xidmətləri tam qüvvəsi ilə oxucular üçün aktivləşdi:

- Biblioqrafik sorğu
- Virtual Sərgi
- Metodiki xidmət

COVID-19 pandemiyası ilə əlaqədar olaraq şəhər (rayon) MKS-lərə metodik ezamiyyələrin təxirə salınmasına baxmayaraq, respublikamızın şəhər və rayon MKS-lərinə metodiki köməklik onlayn rejimdə həyata keçirilmişdir. Pandemiya dövründə kitabxananın onlayn xidmətlərinin

(biblioqrafik sorğu, sənədlərin sifarişi və elektron çatdırılması, virtual sərgi və metodiki xidmətlər) oxucular üçün daima aktiv olmuşdur. Xüsusi karantin rejimi dövründə F.Köçərli adına Respublika Uşaq Kitabxanası virtual xidmət sistemində zəngin tammətnli elektron resurslara malik olan "Elektron kataloq və elektron kitabxana" bölməsindən oxucular istifadə edib, məlumat toplamışlar.

"Evdə qal, intellektdən qalma" ailəvi onlayn viktorina;

"Narkomaniya 21-ci əsrin bəlasıdır" adlı skyp görüş;

"Günümüzün fədakarları" adlı onlayn görüş;

"Sən elə bir zirvəsən ki..." adlı esse müsabiqəsi;

Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş ailəvi onlayn viktorina;

"Sən elə bir zirvəsən" adlı distant görüş ;

F.Köçərli adına Respublika Uşaq kitabxanası və İdrak liseyinin birgə təşkilatçılığı ilə uşaqların sevimli yazarı Zahid Xəlil arasında onlayn görüşdə "Torağaylar oxuyur", "Ballıca", "Çıraq nənənin nağılları"nın müzakirəsi;

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən hazırlanmış "Xanımana Əlibəyli – Elektron Məlumat Baza"sının onlayn təqdimatı;

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları tərəfindən hazırlanmış "Xanımana Əlibəyli" elektron məlumat bazası virtual oxuculara təqdim olundu. Baza "Uşaq ədəbiyyatı xəzinəsindən" seriyası çərçivəsində Azərbaycan uşaq ədəbiyyatının əvəzolunmaz simalarından biri olan Xanımana Əlibəylinin anadan olmasının 100 illiyi münasibətilə yaradıcılığını tam və küll halında işıqlandırmaq məqsədi ilə tərtib olunub. 10 bölmədən ibarət olan "Xanımana Əlibəyli" elektron məlumat bazasında "Xanımana Əlibəylinin həyat və yaradıcılığı", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Görkəmli şəxsiyyətlər şairə haqqında", "Əsərləri", "Haqqında",

“Tərcümələri”, “Sözlərinə yazılmış mahnılar”, “Xanımana Əlibəyliyə həsr olunmuş şeirlər”, “Mükafatları”, “Fotoqalereya” kimi bölmələri yer almışdır. Bazaya şairin həyat və yaradıcılığını (1936-2018) əhatə edən 551 adda material daxil edilmişdir. “Əsərləri” bölməsində kitablar, məqalələr Azərbaycan, rus və digər dillərdə olmaqla tammətnli daxil edilmişdir. Ədəbi tənqidi publisistik məqalələr, kitablar, dərsliklər, dövri mətbuat və məcmuələrdə dərc olunan əsərləri Azərbaycan dilində verilmişdir. “Haqqında” bölməsi 3 hissəni - kitablar, məqalələr, avtoreferat və dissertasiyaların biblioqrafik təsvirini özündə əks etdirir. “Fotoqalereya” bölməsində ədibin şəxsi həyatını əks etdirən fotolarla yanaşı, kitablarının foto sərgisi də verilmişdir. Buradan tanış ola bilərsiniz https://clb.az/arxiv2021/elektron/XanimanaElibeyli/index.html

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən “Uşaq ədəbiyyatı xəzinəsindən” seriyası çərçivəsində görkəmli uşaq yazıçısı, dünya uşaq ədəbiyyatının kamil tərcüməçisi, zəngin bir irs qoyub getmiş Tofiq Mahmudun yaradıcılığını tam və küll halında işıqlandırmaq məqsədi ilə “Tofiq Mahmud. Biblioqrafiya”(271 səh.) kitabı və “Tofiq Mahmud” Elektron Məlumat Bazası tərtib olunub. “Tofiq Mahmud” Elektron Məlumat Bazasında isə “Tofiq Mahmud bədii yaradıcılığının sirləri” (Filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərli); “Həyat və fəaliyyətinin əsas tarixləri”; “Görkəmli şəxsiyyətlər şair haqqında”; “Müdrik deyimləri” “Əsərləri”; “Haqqında”; “Sözlərinə yazılmış mahnılar”; “Tofiq Mahmuda həsr olunmuş şeirlər”; “Mükafatları” “Fotoqalereya”; “Videoqalereya” bölmələri yer almışdır.

Bazaya şairin həyat və yaradıcılığını (1959-2018) əhatə edən kitablarının, tərcümələrinin, dövri mətbuatda və məcmuələrdə dərc olunan məqalələrinin və həmçinin onun haqqında yazılan kitabların, məqalələrin biblioqrafik təsvirləri ilə yanaşı, onların tam mətnləri də daxil edilmişdir. Əsərləri bölməsi-Kitablar (Azərbaycan, Rus, Digər dillərdə) və Məqalələr – Ədəbi tənqidi publisistik məqalələri və Kitablarda və dövri mətbuatda və məcmuələrdə dərc olunan əsərləri hissələrindən ibarətdir. Haqqında bölməsi 3 hissədən kitablar, məqalələr tam mətnindən və Avtoreferat və disertasiyaların biblioqrafik təsvirini özündə əks etdirir. Fotoqalereya bölməsində ədibin həm şəxsi həm də ictimai həyatını əks etdirən fotolarla yanaşı əsərlərinin foto sərgisi də verilmişdir. Videoqalereya bölməsində isə Haqqında filmlər və şairin öz səsi ilə olan lent yazıları verilib.

https://clb.az/arxiv2021/tofiq-mahmud_d2400.html

https://clb.az/arxiv2021/elektron/TofiqMahmud/index.html

Pandemiya dövründə Beynəlxalq Uşaq Kitabı Şurası Respublika Uşaq Kitabxanasının fəaliyyətini sosial səhifələrində dəstəkləyib

Beynəlxalq Uşaq Kitabı Şurası (İBBY) Azərbaycanın Milli Bölməsi olan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fəaliyyətini "Twitter" sosial səhifəsindəki izləyiciləri arasında paylaşıb. Qeyd edək ki, 1967-ci ildən etibarən H.K.Andersenin doğum günü olan aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Şurasının təşəbbüsü ilə bütün dünyada Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd olunmağa başlayıb. F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildən Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Təşkilata üzv olmaqda əsas məqsəd Azərbaycanda uşaq

yazıçıları, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək, Beynəlxalq Uşaq Kitabı Şurası ilə ölkəmizi tanıtmaq və uşaq ədəbiyyatı sahəsində olan yenilikləri təbliğ etməklə uşaqların mütaliəyə olan həvəslərini artırmaq, onları dünya uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir. Həmçinin uşaqların intellektual inkişafında kitabın rolunu artırmaq üçün kitaba sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir. Qeyd edək ki, kitabxananın virtual xidmətindən təkcə ölkəmizdə deyil, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlı uşaqlar da bəhrələnir. Gün ərzində 1000-ə yaxın virtual oxucu kitabxananın sosial şəbəkələrdə olan xidmətlərindən istifadə edir.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası koronavirus pandemiyası və bununla əlaqədar ölkədə elan olunan xüsusi karantin rejimi günlərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin ilə birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Kitab hədiyyəsi" aksiyasına ilk olaraq qoşulmaqla öz dəstəyini göstərdi. Layihə, ölkədə karantin xəstəxanalarında koronavirusdan müalicə alan uşaqlara dəstək məqsədilə həyata keçirilir. Aksiyaya Respublika Uşaq Kitabxanası ilə yanaşı ölkəmizdə fəaliyyət göstərən uşaq nəşriyyatları və uşaq yazarları, Bakı Uşaq Nəşriyyatı, Gəncliyə Yardım Fondu, uşaq yazıçısı Mehriban Nağıyeva da qoşuldular. Aksiya çərçivəsində qısa müddət ərzində 300-ə yaxın kitab toplanılmışdır. Aksiyanın təşkilində məqsəd - koronavirusdan müalicə alan uşaqların təcrid şəraitində vaxtını səmərəli keçirmələrinə yardım etmək, onların davamlı mütaliəyə həvəsini artırmaqla inkişafına kömək etmək, eləcə də mənəvi və psixoloji dəstək vermək idi.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası Koronavirus (COVİD-19) infeksiyası ilə əlaqədar ölkə ərazisində tətbiq olunmuş karantin rejimi günlərində

oxucularını clb.az saytında etdiyi yeniliklərlə sevindirməyə davam etdi. Uşaqlar kitabxananın internet ünvanına əlavə edilən bu link (http://usaqkitabi.az/four-columns-2/) vasitəsi ilə evdə olduqları zamanı mütaliə edərək daha səmərəli keçirə bildilər. Layihə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası, Azərbaycan Respublika Gəncliyə Yardım Fondu və Türk İşbirliği ve Koordinasyon Ajansının (TİKA) birgə təşkilatçılığı ilə həyata keçirilmişdir. Sayt uşaq ədəbiyyatının toplandığı elektron kitabxana olaraq Azərbaycanda uşaqların bir-birindən maraqlı kitablara olan ehtiyaclarını qarşılamaq və bu kitabların istifadəsini asanlaşdırmaq məqsədi ilə qurulmuşdur. Oxucular saytda olan müxtəlif bölmələr vasitəsi ilə hekayələr, şeirlər, romanlar, biri-birindən maraqlı kitablar, səsli kitablar və həyata keçirilmiş layihələrlə tanış olma imkanı əldə edəcəklər. Saytda yer alan 40-a yaxın elektron kitablar həm tam mətinli həm də audio variantda yerləşdirilmişdir. Belə ki, oxucular həmin sayta daxil olarkən, kitabları pdf variantda oxumaq və ya səsli formada dinləmək şansları var.

Koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə çərçivəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanası kiçik yaşlı oxucularına dəstək olmaq məqsədi ilə onları, kitabxananın www.clb.az internet ünvanında yerləşən multimedia bölməsində 180 ədəd audio nağılları dinləməyə dəvət etdi. Kitabxananın internet ünvanında yerləşən bu link (https://www.clb.az/sesler/1368.mp3) vasitəsilə evdə olduğunuz günlərdə kitabxananın internet ünvanındakı müxtəlif nağılları dinləmək və evdə qalaraq mütaliəni davam etdirmək imkanı əldə edəcəksiniz.

Evdə qal -
Bizdən nağıl al...
Sənə dünyanı
Versin nağıllar...
#Evdeqal mütaləni davam et, #Evdeqal nağıl dinlə.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası əhalinin Koronavirus (COVİD-19) infeksiyasına yoluxmamaları üçün evdə qaldıqları bir zamanda növbəti uğurlu layihə həyata keçirdi. Hər zaman oxucularını düşünən kitabxana onlara evdə qaldıqları müddətdə dəstək olmaq və dərslərində geri qalmamaları üçün kitabxananın internet ünvanında olan yeni ədəbiyyat bölməsinə yeni audio dərsliklər hissəsi əlavə etdi. Həmin bölməyə 5, 6 və 7-ci sinif dərslikləri daxil edilmişdir. Hər bir dərslikdə isə xüsusi bölmələr var. Hansıki, bu bölmələr üzrə audio fayllar yerləşdirilmişdir. Qeyd edək ki, təqdim olunan audio dəsrliklərdə tam olaraq müəlliflik hüquqlarına riayət olunmuşdur.

Aşağıdakı linklər vasitəsilə həmin dərsliklərlə tanış ola bilərsiniz.

5-ci sinif Ədəbiyyat dərsliyi

6-cı sinif Ədəbiyyat dərsliyi

7-ci sinif Ədəbiyyat dərsliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası əhalinin koronavirus (COVİD-19) infeksiyasına yoluxmamaları üçün evdə qaldıqları bir zamanda kiçik yaşlı oxucularına dəstək məqsədilə oxucularını evdə qaldıqları müddəti səmərəli və faydalı keçirmələri üçün kitabxananın internet ünvanında olan multimedia bölməsində yerləşdirilmiş cizgi filmlərinə baxmağa dəvət etdi. Hazırda 68 cizgi film oxuculara təqdim olunub.

Bunlardan 15-i Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və "Azanfilm" studiyasının birgə istehsalıdır. Cizgi filmlər sırasında olan "Əlifba" oxucularımıza əlifbanın öyrədilməsində yardım edəcək. “Sağlam dişlər”, “Balaca ev”, “Mərhəmətin dadı” kimi və s. cizgi filmlər də uşaqlara fayda verəcəkdir. Aşağıdakı link vasitəsilə həmin cizgi filmlərinə baxa bilərsiniz.

https://clb.az/arxiv2021/cizgi-filmlri_k42.html

Pandemiya ərəfəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanası “Günəşdən gələn pay” adlı layihəyə start verdi. Layihənin əsas məqsədi, oxucuları sevilən şair və yazıçıların həyat və yaradıcılıqları ilə sosial şəbəkələr vasitəsi ilə yaxından tanış etmək idi. Bəşəriyyətin söz sənəti xəzinəsinə incilər bəxş etmiş Azərbaycan ədəbiyyatının, eləcə də dünya ədəbiyyatının humanizm ruhlu seçmə nümunələri hər bir şəxs üçün əsl həyat məktəbidir. Şəxsiyyət olaraq insanın formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, vətəndaş tərbiyəsində mütaliənin rolu müstəsna əhəmiyyət kəsb edir. Aqillər kitabı bilik, zəka, kamillik vasitəsi hesab edirlər. Çünki insanlar ən yüksək keyfiyyətləri məhz mütaliə etməklə qazanırlar. Layihənin adının “Günəşdən gələn pay” olması da təsadüfi deyil. Əgər biz şair və yazıçılarımızı parlaq günəşə bənzətsək ədiblərin əsərlərini də oxuculara düşən pay kimi təsəvvür edə bilərik. Hər zaman oxuculara kitab və kitabxananın əhəmiyyətini vurğulayan Respublika Uşaq Kitabxanası bu layihə vasitəsi ilə yenə də uşaqları Azərbaycan və dünya ədəbiyyatının inciləri ilə yaxından tanış edərək onların dünyagörüşlərinin formalaşmasına və hərtərəfli inkişafına öz töhvəsini verir. Mövzu çərçivəsində,

kitabxananın əməkdaşları oxuculara yazıçı və şairlərin həyat və yaradıcılığı haqqında məlumat verərək, şeirlərini ifa edərək, eləcə də, oxucuları ədibin kitabları ilə virtual tanış etdilər. Qeyd edək ki, layihə kitabxananın (Facebook, İnstaqram, Twitter sosial şəbəkələri, Youtube və kitabxananın internet ünvanı) vasitəsi ilə təqdim edilir.

Kitab cəmiyyətin formalaşmasında, şəxsiyyətin inkişafında, mədəniyyətin təşəkkül tapmasında mühüm rola malikdir. Savadlı və ziyalı cəmiyyət güclü dövlətin əsas təməllərindən biridir. Ölkə başçısı cənab İlham Əliyevin təhsilə qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu öndər Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Respublika Uşaq Kitabxanasının "Bilik gününə" həsr etdiyi virtual sərginin təşkil edilməsində əsas məqsəd, virtual oxucuları zəngin uşaq ədəbiyyatı fondu ilə tanış etmək idi. Sərgi uşaqların yaş qruplarına uyğun olaraq kitabxananın nağıl otağı, kiçik və böyük oxu zalında sərgiləndi. Kitabxananın əməkdaşları uşaqları virtual sərgidə yer alan Azərbaycan və dünya ədəbiyyatına dair biri-birindən maraqlı və rəngarəng kitablarla ümumi tanış etdilər. Təqdim olunan videoçarxda uşaq yazarları oxuculara yeni dərs ili münasibəti ilə təbriklərini çatdırdılar.

Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə hər il ölkəmizdə 18 sentyabr "Üzeyir musiqi günü" kimi qeyd olunur. Bununla da bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyovun doğum tarixi əlamətdar günə çevrilib. F.Köçərli adına Respublika Uşaq kitabxanası "Sərhədsiz incəsənət" adlı yeni layihəsinin ilk mövzüsunu 18 sentyabr "Milli Musiqi Günü"nə həsr etdi. Layihənin əsas məqsədi, kitabxananın fondunda olan, mədəniyyətin müxtəlif sahələrini əhatə edən resurslarla oxucuları virtual tanış etmək və onların dünyagörüşlərinin

artırılmasında xidmət etmək idi. Pandemiya şəraitində mədəniyyətin müxtəlif sahələrini əhatə edən mövzuları özündə əks etdirən video-çarxlar kitabxananın “Facebook”, “İnstagram”, “Twitter” sosial şəbəkələri, “YouTube” və kitabxananın internet ünvanı vasitəsilə təqdim edildi.

F.Köçərli adına Respublika Uşaq kitabxanası “Zərərli Vərdişlərə Qarşı” İctimai Birliyinin 15 iyul- 15 oktyabr 2020-ci il tarixlərində həyata keçirdiyi “Asılı olma azad ol” layihəsinə dəstək oldu. Layihənin məqsədi, yeniyetmə və gənclərin zərərli vərdişlərə meyilliliyinin qarşısını almaq üçün onlara narkotik maddələrin, siqaretdən istifadənin və alkoqollu içkilərin insanın ruh və bədən sağlamlığına vurduğu zərərləri elmi əsaslarla izah etmək və cəmiyyətdə sağlam həyat tərzini təbliğ etmək idi.

Qeyd edək ki, layihə çərçivəsində yeniyetmə və gənclərin maarifləndirilməsi üçün “Siqaretdən uzaq dur” adlı kitabçalar nəşr olundu.“Zərərli Vərdişlərə Qarşı” İctimai Birlik tərəfindən nəşr olunan “Siqaretdən uzaq dur” adlı kitabçalar Respublika Uşaq kitabxanasına hədiyyə edildi. Eləcə də, Respublika Uşaq kitabxanası hədiyyə edilən 550 ədəd kitabça və bukletlərin respublikada fəaliyyət göstərən uşaq kitabxanalarına göndərilməsini təmin etməklə layihəyə dəstəyini göstərdi.

Pandemiya ərəfəsində Respublika Uşaq kitabxanası “Niyyəti gözəl, bu günü gözəl, sabahı parlaq Azərbaycanım!” adlı esse müsabiqəsi təşkil etdi. Müsabiqənin keçirilməsində əsas məqsəd uşaq və yeniyetmələrdə vətənpərvərlik, vətən torpağına, millətə sədaqət hisslərini aşılamaq və onlara dəstək olmaq idi. Münsiflər heyəti tərəfindən “10-17” yaş arası uşaq və yeniyetmələr arasında 3 nəfər qalib seçildi. Qalib və iştirakçılara həvəsləndirici diplom, fəxri fərman və kitablar hədiyyə olundu. Esselər kitabxananın elektron poçt ünvanına

göndərilmişdir:info@clb.az; ushaqkitabxanasi@gmail.com; childlibbaku@yahoo.com

F. Köçərli adına Respublika Uşaq Kitabxanası pandemiya ərəfəsində yeniyetmələr arasında “Terrora yox deyək!” adlı rəsm müsabiqəsi, Bu gün gərək hər anımız Vətən! - desin!” adlı şeir müsabiqəsi təşkil etdi. Müsabiqənin məqsədi Azərbaycan ordusunun şanlı rəşadətini, şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədi ilə yeniyetmələrin diqqətini erməni terroruna cəlb etmək, onlara sülh mədəniyyəti, xalqlar və insanlar arasında qarşılıqlı anlaşma, dostluq münasibətlərinin əhəmiyyətini, milli dəyərlərimizi, tolerantlıq və multikulturalizm ənənələrini aşılamaq. habelə, xüsusi istedada malik yeniyetmələri aşkarlamaq və onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək vermək idi. Qalib və iştirakçılara həvəsləndirici diplom, fəxri fərman və kitablar hədiyyə olundu. Rəsimlər elektron poçt ünvanına göndərildi: info@clb.az; ushaqkitabxanasi@gmail.com; childlibbaku@yahoo.com

F.Köçərli adına Respublika Uşaq kitabxanası 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə layihəsi əsasında oxucular və dərnək üzvləri arasında onlayn şəkildə esse müsabiqəsinə start verdi. Müsabiqənin keçirilməsində əsas məqsəd müstəqil yaradıcı gənc nəsildə Ana dilimizin zənginliyini, saflığını qorumağı təbliğ etmək, istedadlarını üzə çıxarmaq, tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək, onlarda milli-mənəvi dəyərləri formalaşdırmaqdan ibarət idi.

Respublikanın hər bir bölgəsindən kitabxananın elektron poçt ünvanına yönlənən esselər uşaqların qəlbindən qopub gələn qürurverici hisslərin tərcümanıdır. Kitabxana pandemiya ilə əlaqədar oxucu qəbul etmədiyi üçün oxuculara internet ünvanında yeni rubrika F.Köçərli adına Respublika Uşaq Kitabxanası clb.az saytının Multimedia

bölməsində yeni rubrika -"Əzizinəm Qarabağ" adlı Virtual sərgini oxucuların istifadəsinə təqdim etdi.

Oxucular, virtual sərgi vasitəsi ilə Qarabağ həqiqətlərini əks etdirən, real tarixi faktlara və sənədlərə əsaslanan 50 kitabın tam mətni ilə tanış oldular. Təqdim olunmuş kitablar arasında Fazil Qaraoğlunun "Ermənilər və həqiqətlər", İsmayıl İmanzadə, Tariyel Abbaslının "Cəbrayıl şəhidləri", Əlisahib Əroğulun "Erməni-daşnak faşizmi və Azərbaycan", Günel Anarqızının "Oğlun Qarabağ", Ələmdar Quluzadənin "Qadan mənə Qarabağ", Elxan Elatlının "Qisas gecəsi", Sevinc Nuruqızının "Qisas", Əlibala Məhərrəmzadənin " Xocalı Soyqırımı", Mina Rəşidin "Baxmaqla görmək ayrıdı!" və bu kimi müxtəlif Qarabağ həqiqətlərini əks etdirən kitablar yer alıb. Əsas məqsəd ciddi karantin rejimində oxucuların mütaliə tələbatını ödəmək və onlara kitabxananın elektron resurslarını təqdim etmək idi.

Şuşanın Azərbaycan Mədəniyyətinin Paytaxtı elan edilməsi tarixi Qələbədən sonra Şuşa şəhərinə verilən böyük dəyərdir. Azərbaycan mədəniyyəti tarixində Şuşada muğamın, musiqinin, ədəbiyyatın, xalçaçılığın, dekorativ sənətin, rəssamlığın, teatr sənətinin inkişafının müstəsna əhəmiyyəti olmuşdur. Bir zamanlar "Azərbaycanın musiqi beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin Vətəni olan Şuşa – mədəniyyət, incəsənət tarixidir. Pandemiya dövründə Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi "Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı" adlı tövsiyə biblioqrafiyası hazırladı. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzu haqqında

ətraflı məlumat verilmişdir. Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş 128 adda materiallar öz əksini tapmışdır. Vəsaitə 50 kitabın, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materialın linki də verilmişdir. Tövsiyə göstəricisi ilə aşağıdakı linkdən tanış ola bilərsiniz.

https://clb.az/arxiv2021/ua-azrbaycann-mdniyyt-paytaxt_d3107.html

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkil etdiyi "Qonağım ol" rubrikasının növbəti qonağı görkəmli qrafika ustası, xalq rəssamı Arif Hüseynov oldu."Qonağım ol"rubrikasının əsas məqsədi rəssamla uşaqlar arasında virtual görüşü təmin etməklə, onların intellektual səviyyələrinin inkişafını stimullaşdırmaq, uşaqları rəssamın yaradıcılığı ilə yaxından tanış etmək və canlı yayım vasitəsilə diskussiya aparmaq imkanını yaratmaqdır. Rəssam biri-birindən maraqlı saysız hesabsız qrafik işləri, illüstrasiyaları ilə keçmişlə bu günü özündə birləşdirən mənəvi körpü yaradır. Virtual görüş çərçivəsində Arif Hüseynov izləyicilərə yaradıcılığı, fərdi və qrup sərgiləri, işləmə texnikası, əldə etdiyi nailiyyətlərdən, sənətdə etdiyi yeniliklər və dünya rəssamlıq sənəti haqqında ətraflı məlumat verdi. 30-dan çox uşaq və bir çox kitabların illustratoru olan Arif Hüseynov realist rəssam olduğunu və əsərlərində səmimiyyətə üstünlük verdiyini bildirdi. Həmçinin, sənətkar canlı yayıma qoşulan izləyicilərin "Məhz sizə məxsus işləmə texnikası hardan qaynaqlanır?", "Sizin həyatınızı, ruh halınızı əks etdirən əsər hansıdır?","Ətraf mühitdəki rəng çalarlarına baxış bucağınız necədir?", "Əsərlərinizdə ən çox hansı rənglərə üstünlük verirsiniz?", "Əsərlərinizdə uşaqların zövqlərini nəzərə alırsınızmı?", "Akademik təhsilli rəssam kitab illustrasiyası edə bilərmi?", "Rəssam- dizayner

olmaq üçün nə etmək lazımdır?", "Bir əsər nə qədər müddətə başa gəlir və bir sərgi təşkil etmək üçün neçə müddət çalışmaq lazımdır?", "Uzun müddət üzərində işlədiyiniz əsər hansıdır?", "Yadda qalan rəssam olmaq üçün nə etmək lazımdır?" kimi bir çox müxtəlif maraqlı suallarına ətraflı cavab verdi. Qeyd edək ki, onlayn görüş kitabxananın "İnstagram" sosial şəbəkəsi üzərindən reallaşdı.

Pandemiya dövründəF.Köçərli adına Respublika Uşa Kitabxanasında tez-tez məktəblilərin həyatında kitab və kitabxanaların rolu adlı onlayn görüşlər təşkil olundu. Onlayn platformada Zoom proqramı üzərindən həyata keçən görüşün əsas məqsədi uşaq və yeniyetmələrin hərtərəfli inkişafında kitab və kitabxanaların rolunu vurğulamaq, həmçinin, xalqına, dövlətinə layiqli, vətənpərvər fərd olaraq böyüməsi üçün mütaliənin ən güclü və əvəzsiz vasitə olduğunu diqqətə çatdırmaq idi.

Bu il dahi şair və mütəfəkkir, qüdrətli söz və fikir ustadı Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Nizami Gəncəvinin 880 - illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tədbirlər planına əsasən F.Köçərli adına Respublika Uşaq Kitabxanası pandemiya şəraitində bir sıra onlayn şəkildə layihə və tədbirlər həyata keçirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası pandemiya dövründə "Ağdam-Qafqazın Xirosiması" adlı tövsiyə biblioqrafiyası oxuculara təqdim etdi. Təbii-coğrafi baxımdan respublikamızın zəngin bölgələrindən biri olan Ağdam -xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən müxtəlif abidələr diyarıdır. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan 55 adda ədəbiyyat

siyahısından ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilib. Tövsiyə göstəricisində yer alan kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapıb. Oxuculara vəsaitdə verilmiş ədəbiyyatların tam mətni ilə tanış olmaq imkanı da yaradılmışdır. Belə ki, vəsaitdə 38 kitab, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materialların linkləri də verilib. Aşağıdakı link vasitəsi ilə tövsiyə biblioqrafiyası ilə yaxından tanış ola bilərsiniz: https://clb.az/arxiv2021/dosyalar/3180.pdf

